# Siyasi qətiyyətin və dövlətin gücünün təntənəsi

**Azərbaycan xalqının dövlətçilik tarixində elə günlər var ki, bu tarixlər sadəcə təqvimdə bir gün deyil, millətin yaddaşında əbədi bir fəxarət simvolu kimi yaşayır. 2020-ci il 8 noyabr tarixi məhz bu qəbildəndir. Həmin gün Azərbaycan dövləti və xalqı 30 ilə yaxın davam edən torpaq həsrətinə son qoyaraq böyük tarixi ədaləti bərpa etdi.**

Bu Qələbə təkcə hərbi-siyasi hadisə deyil, həm də iradənin, dövlətin gücünün, xalq-lider birliyinin və milli kimliyimizin təntənəsi idi. Bu tarixi Zəfərin memarı Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevdir. Onun uzaqgörən siyasəti, strateji düşüncəsi, qətiyyəti və xalqına sonsuz inamı nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü təmin etdi, beynəlxalq hüququn prinsiplərini reallığa çevirdi.

Zəfər Günü Azərbaycan xalqının milli iradəsinin, müstəqil dövlətin siyasi sabitliyinin və Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi strateji xəttin möhtəşəm nəticəsidir. Bu Qələbə həm də Azərbaycanın suverenlik tarixində yeni mərhələnin başlanğıcıdır. Azərbaycan 1991-ci ildə müstəqilliyini bərpa etdikdən sonra çox mürəkkəb geosiyasi şəraitlə üzləşdi. Ölkə iqtisadi çətinliklər, siyasi qeyri-sabitlik, ordu quruculuğunda boşluqlar və Ermənistanın hərbi təcavüzü ilə müşayiət olunan ağır dövr yaşadı. Lakin məhz Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışı Azərbaycanı dağılmaq təhlükəsindən xilas etdi. Ulu Öndər dövlətçiliyin möhkəm təməlini qoydu, müasir Konstitusiyanın qəbuluna nail oldu, Milli Ordu quruculuğunu başlatdı və ölkədə siyasi sabitliyi təmin etdi.

Ulu Öndərin siyasi kursu sonrakı illərdə Prezident İlham Əliyev tərəfindən müasir dövrün tələblərinə uyğun şəkildə davam etdirildi. İlham Əliyev 2003-cü ildə Prezident seçilərkən bəyan etdiyi "Güclü dövlət - güclü iqtisadiyyat - güclü ordu" prinsipi sonrakı illərin dövlət siyasətinin əsas istiqamətinə çevrildi. Onun rəhbərliyi ilə iqtisadiyyat dinamik inkişaf etdi, ölkə enerji təhlükəsizliyi sahəsində qlobal rol qazandı, beynəlxalq etimadlı tərəfdaşa çevrildi. Prezident İlham Əliyevin məqsədyönlü siyasəti nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrildi. Güclü iqtisadi potensial, balanslı xarici siyasət və hərbi islahatlar ölkənin suverenliyini möhkəmləndirdi. Bu illər ərzində orduya ayrılan böyük investisiyalar, yüksək texnoloji silahların alınması, müasir hərbi təlimlər və milli zabit korpusunun hazırlanması Azərbaycanın müdafiə qüdrətini keyfiyyətcə yeni səviyyəyə qaldırdı. Prezident İlham Əliyevin dediyi kimi: "Biz elə ordu yaratmışıq ki, istənilən vəzifəni yerinə yetirməyə qadirdir. Bu ordu Vətən müharibəsində öz sözünü dedi".

Bu illər ərzində Azərbaycanın diplomatik çevikliyi də gücləndi. Prezident İlham Əliyevin balanslaşdırılmış xarici siyasəti nəticəsində ölkəmiz həm regionda, həm də beynəlxalq müstəvidə etibarlı tərəfdaş kimi tanındı. Azərbaycanın beynəlxalq nüfuzu, xüsusilə BMT, Qoşulmama Hərəkatı və Türk Dövlətləri Təşkilatı kimi platformalarda yüksəldi. Bu amil gələcək qələbənin siyasi-diplomatik zəminini möhkəmləndirdi.

2020-ci il 27 sentyabr tarixində Ermənistanın hərbi təxribatlarına cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Bu, yalnız bir hərbi əməliyyat deyil, həm də milli ədalətin bərpası uğrunda haqq mübarizəsi idi. Qısa müddətdə Azərbaycan Silahlı Qüvvələri yüksək peşəkarlıq, taktiki üstünlük və xalq dəstəyi sayəsində düşmən müdafiəsini yararaq sürətlə irəlilədi. Müharibənin hər günü Prezident İlham Əliyevin rəhbərliyinin gücünü və xalqın birliyini nümayiş etdirdi. O, cəbhə bölgəsində əməliyyatların gedişini şəxsən izləyir, hər bir azad edilmiş kənd və şəhərlə bağlı xalqa müraciət edirdi. Bu çıxışlar xalqın ruhunu yüksəltdi, arxa cəbhədə misilsiz həmrəylik yaratdı. Əsgər və zabitlər "Ali Baş Komandanın əmrlərini yerinə yetirmək şərəf borcumuzdur" deyərək döyüş meydanında igidlik göstərirdilər. 44 gün ərzində Azərbaycan Ordusu Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı kimi rayonları və onlarca kəndi işğaldan azad etdi.

Noyabrın 8-də Şuşa şəhərinin azad olunması qələbənin zirvəsi oldu. Prezident İlham Əliyev həmin tarixi günü elan edərkən dediyi "Şuşa azaddır! Qarabağ Azərbaycandır!" sözləri xalqın qəlbində əbədi yer aldı. Zəfər həm də xalqın birliyinin simvolu idi. Hər kəs - ön cəbhədə əsgər, arxa cəbhədə könüllü, jurnalist, həkim, gənc və yaşlı vətəndaşlar bir amal uğrunda birləşmişdi. Xalqın bu birliyi dövlətin ən böyük güc mənbəyinə çevrildi. Məhz bu milli həmrəylik və liderə etimad müharibənin taleyini müəyyənləşdirdi.

44 günlük müharibə həm də informasiya və diplomatiya müharibəsi idi. Ermənistan və onu dəstəkləyən qüvvələr beynəlxalq ictimaiyyəti çaşdırmaq, dezinformasiya yaymaq cəhdlərinə əl atırdılar. Lakin Prezident İlham Əliyevin dəqiq arqumentlərə söykənən hüquqi və faktoloji əsaslı çıxışları bu təbliğatı tam zərərsizləşdirdi. Müharibə dövründə Prezident İlham Əliyev dünyanın aparıcı media orqanlarına müsahibə verdi. Hər müsahibəsində Azərbaycanın mövqeyi açıq və qətiyyətlə ifadə olundu: "Biz öz torpağımızda vuruşuruq. Qarabağ Azərbaycandır!" Prezident İlham Əliyev diplomatik cəbhədə balanslı siyasət yürüdərək beynəlxalq təzyiqlərin qarşısını aldı, Azərbaycanın haqq işini legitim əsaslarla müdafiə etdi. O, hərbi əməliyyatları beynəlxalq hüquq normalarına uyğun şəkildə idarə etdi və humanitar dəyərləri ön planda saxladı. Nəticədə Azərbaycan həm döyüş meydanında, həm də diplomatik səhnədə qalib gəldi.

10 noyabr 2020-ci ildə imzalanmış üçtərəfli Bəyanat Ermənistanın kapitulyasiyası ilə nəticələndi. Bu sənəd yalnız hərbi qələbənin təsdiqi deyil, həm də regionda sülhün və əməkdaşlığın yeni modelinin əsasını qoydu. Prezident İlham Əliyev bu tarixi hadisəni belə dəyərləndirdi: "Biz yalnız torpaqlarımızı azad etmədik, həm də Cənubi Qafqazda yeni geosiyasi reallıq yaratdıq".

Qələbədən sonra Azərbaycanın qarşısında yeni mərhələ - bərpa, yenidənqurma və sülh dövrü başladı. Prezident İlham Əliyev bu mərhələni "Qarabağa Böyük qayıdış" adlandırdı. Dövlət başçısının birbaşa nəzarəti altında azad edilmiş ərazilərdə infrastruktur, enerji, kənd təsərrüfatı, təhsil və sosial sahələrdə irimiqyaslı layihələr həyata keçirilir. Füzuli, Zəngilan, Laçın və Cəbrayılda beynəlxalq hava limanlarının tikilməsi, avtomobil və dəmir yollarının bərpası, "ağıllı kənd" və "yaşıl enerji" layihələrinin icrası Azərbaycanın gələcəyə baxışının göstəricisidir. Bu ərazilər artıq sadəcə bərpa olunmur, onlar yeni konseptual inkişaf modelinə çevrilir.

Zəngəzur dəhlizi layihəsi isə bu Qələbənin geoiqtisadi nəticəsidir. Prezident İlham Əliyev bu barədə deyib: "Zəngəzur dəhlizi təkcə Azərbaycanın deyil, bütün regionun gələcəyini dəyişəcək strateji layihədir". Bu təşəbbüs Cənubi Qafqazı qlobal nəqliyyat və enerji xəritəsində mühüm mərkəzə çevirir, regionda davamlı sülh və əməkdaşlıq mühitinin formalaşmasına xidmət edir.

Azərbaycan bu mərhələdə sülh gündəliyini də irəli sürdü. Prezident İlham Əliyev Ermənistanla sülh sazişinin imzalanması təşəbbüsünü ortaya qoyaraq regionda sabitlik və əməkdaşlıq üçün real imkanlar yaratdı. Onun "Biz müharibə istəmirik, biz sülh istəyirik" sözləri Azərbaycanın sivil və məsuliyyətli dövlət siyasətinin bariz ifadəsidir.

Zəfər Günü təkcə hərbi qələbə deyil, həm də mənəvi dirçəlişin, milli kimliyin və xalqın özünəinamının bərpasının simvoludur. Bu qələbə Azərbaycan xalqının tarixində yeni milli ideologiyanın əsasını qoydu. "Qarabağ Azərbaycandır!" şüarı milli birliyin, suverenliyin və dövlətə sədaqətin ideoloji paroluna çevrildi. Ulu Öndər Heydər Əliyevin "Mən fəxr edirəm ki, azərbaycanlıyam" kəlamı bu gün hər bir vətəndaşın qəlbində yenidən səslənir. Zəfər Günü xalqın Ulu Öndərin siyasətinə sadiqliyinin və bu siyasi kursun sarsılmazlığının təcəssümüdür. Prezident İlham Əliyev bu ideologiyanı müasir dövrün reallıqları ilə birləşdirərək onu milli inkişaf strategiyasına çevirdi. Bu qələbə həm də gənc nəslin tərbiyəsində mühüm rol oynayır. Zəfər Günü məktəblərdə, ali təhsil müəssisələrində, ordu və ictimai təşkilatlarda vətənpərvərlik dərslərinin, tarixi yaddaşın və milli şüurun formalaşmasının əsas simvoluna çevrilib. Qələbə ruhu bu gün hər bir azərbaycanlının həyat fəlsəfəsinin ayrılmaz hissəsidir. Zəfər Günü Azərbaycan dövlətinin qüdrətini, xalqın birliyini və Prezident İlham Əliyevin müdrik liderliyini dünyaya nümayiş etdirdi.

8 noyabr 2020-ci il tarixində əldə edilən Qələbə sübut etdi ki, xalqın iradəsi, liderin qətiyyəti və ədalətli mövqe birləşəndə hər bir məqsədə nail olmaq mümkündür. Bu gün Azərbaycan regionda və beynəlxalq müstəvidə öz sözünü deyən, müstəqil qərarlar qəbul edən, milli maraqlarını qətiyyətlə müdafiə edən dövlət kimi tanınır. Qələbə təkcə torpaqların azadlığı deyil, həm də siyasi müstəqilliyin və milli suverenliyin təsdiqidir. Prezident İlham Əliyevin dediyi kimi: "Biz bu Qələbəni xalqımızın iradəsi, dövlətimizin gücü və şəhidlərimizin qanı bahasına qazandıq. Qarabağ Azərbaycandır - və belə də qalacaq!"

*Zəfər Günü Azərbaycanın ən müqəddəs bayramlarından biridir. O həm keçmişin qüruru, həm də gələcəyə inamın təntənəsidir. Bu tarix xalqın yaddaşında əbədi qalacaq - ədalətin, haqqın və qalib dövlətin rəmzi kimi.*

**Şahin SEYİDZADƏ,**
**Milli Məclisin deputatı**

Azərbaycan.- 2025.- 9 noyabr (№ 240).- S.10.